# Elçin HÜSEYNBƏYLİ - 60



Hörmətli Elçin müəllim!

Sizi - tanınmış yazıçı, dramaturq, publisist və tərcüməçini 60 illik yubileyiniz münasibətilə təbrik edirik!

Siz 1989-cu ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirib, Varşava, Praqa və bir sıra şəhərlərdə ixtisasınız üzrə kurslar keçmisiniz. Ədəbi fəaliyyətə həmin dövrdə başlamısınız. Müstəqillik dövrü jurnalistikasının və ədəbiyyatının yaranmasında, inkişafında fəal iştirak etmisiniz. "Balıq adam", "Tut ağacı boyunca", "Yovşan qağayılar", "On üçüncü həvari-141-ci Don Juan", "Şah Abbas", "Metro vadisi", "Yol ayrıcında qaçış", "Azıx", "Yenə iki od arasında", "Vida" romanlarının, 40-dan çox kitabın və yüzə qədər hekayənin, bir o qədər də publisistik məqalənin müəllifisiniz. 20-dən artıq pyesiniz ölkə teatrlarında, eləcə də ölkəmizdən kənarda oynanılıb.

Yaradıcılığınızda Qarabağ mövzusu aparıcı xətt təşkil edir. Əsərləriniz ingilis, rus, gürcü, fransız, polyak, Ukrayna, alman, Litva, ərəb, Koreya dillərində dərc edilib, Türkiyə, özbək, qırğız, türkcəsinə uyğunlaşdırılıb. Kitablarınız Türkiyədə, İranda, Litvada, Gürcüstanda nəşr edilib. Rusiyanın "Drujba narodov", "Literaturnaya qazeta", "Literaturnıy neznakomets" nəşrlərində çapdan çıxıb, eləcə də postsovet ölkələrinin müxtəlif dərgilərində dərc edilib.

Azərbaycan nəsr antologiyasının müxtəlif dillərdəki nəşrlərində əsərləriniz yer alıb. Yaradıcılığınızdan nümunələr orta və ali məktəblər dərsliklərinə daxil edilmişdir.

2000-ci ildə istedadlı gənc yazıçı kimi Prezident təqaüdünə, 2001-ci ildə Yusif Səmədoğlu adına nəsr mükafatına, 2007-ci ildə "Humay" milli mükafatına, 2008-ci ildə Yazıçılar Birliyinin birillik təqaüdünə, 2009-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin nəsr nominasiyası üzrə "Qızıl kəlmə" mükafatına, 2019-cu ildə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinizə görə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüsünüz.

2014-cü ildə TÜRKSOY-un "Onur" ödülü ilə mükafatlandırılmısınız.

Dünya azərbaycanlılarının Bakıda keçirilən qurultayının nümayəndəsi olmusunuz.

Siz "Azərbaycan Yazıçılar Klubu"nun sədri kimi 2013-cü ildən başlayaraq Klubun xəttilə cəbhə və sərhəd bölgələrində bir sıra layihələr gerçəkləşdirmisiniz. Onlardan ən önəmliləri "Canımız Qarabağ, yazımız Qarabağ", "Cəbhəni qarış-qarış!" və "Savaş hələ bitməyib!" şüarları altında həyata keçirilib və keçirilməkdədir.

Türk Dünyası Ədəbiyyatı Dərgiləri Konqresinin baş katibi, Avropa Birliyinin "Yujnıy Kavkaz" ("Güney Qafqaz") dərgisinin Azərbaycan üzrə koordinatoru və redaktoru kimi səmərəli fəaliyyətiniz qeyd edilmişdir. Dünyanın müxtəlif ölkələrində konfrans və seminarlarda ölkəmizi layiqincə təmsil etmisiniz.

Hörmətli Elçin müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 25 dekabr.- 2021- ci il.- S. 15.**